# Azərbaycanla İran arasında regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb

İranda səfərdə olan Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev İran İslam Respublikasının Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibi Əli Laricani ilə görüşüb.



Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, Baş nazirin müavini Şahin Mustafayev Ali Şuranın yeni katibini təyinatı münasibətilə təbrik edərək ona fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə iki ölkə arasında iqtisadi əməkdaşlıq və regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin, o cümlədən Azərbaycanla İran arasında həyata keçirilən Araz dəhlizinin, eləcə də digər müştərək layihələrin əhəmiyyəti vurğulanıb.

Azərbaycan.- 2025.- 24 sentyabr (№ 204).- S.4.